# Günəş sevdalı – Nurəngiz Gün



**Yazıçılar Birliyində müasir Azərbaycan ədəbiyyatının parlaq ismi, mərhum Nurəngiz Günün 85 illiyi münasibətilə "Nurəngiz Gün-85 – Ədibin həyat və yaradıcılığına həsr olunmuş nəşrlərin təqdimatı" adlı tədbir keçirilib.**

Onun özünəməxsus dəsti-xətti, həssas qəlbi, yolu olub. Şeirlərində səmimiliyi, ideya aydınlığı ilə seçilən Nurəngiz xanım XX əsrin 70-ci illər ədəbi nəslinə mənsubdur. Əsərlərində artıq bir söz, yersiz bir cümlə, məntiqsiz bir misra yoxdur. Nurəngiz Günün elə ilk tanışlıqdan adamı qanadlarına alıb ənginliklərə aparan poeziyası yaşarı mövzuların məcmusudur. Hay-küydən, pafosdan uzaq, həyat hadisələrini reallıqla əks etdirən bu yaradıcılıq ampluası son dərəcə cəlbedicidir.

Tədbiri giriş sözü ilə açan Yazıçılar Birliyinin katibi Səlim Babullaoğlu Nurəngiz Günün müasir poeziyada xüsusi yeri olduğunu vurğuladı. O, Nurəngiz Günə həsr edilən nəşrlər haqqında da danışdı.

Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar Nurəngiz Günlə bağlı xatirələrini danışdı, onun bənzərsiz yaradıcılığının xüsusiyyətlərindən bəhs etdi.

Məclisdə çıxış edən akademik Teymur Kərimli, Milli Məclisin deputatı, yazıçı Aqil Abbas, yazıçı Seyran Səxavət, Səyyad Aran, Əməkdar jurnalist Flora Xəlilzadə, şair-publisist Elçin İskəndərzadə və başqaları təqdim edilən nəşrlərin ədibin həyatı və yaradıcılığı haqqında müfəssəl məlumat və mənbə xarakteri daşıdığını, bu nəşrlərin Nurəngiz Gün haqqında tədqiqat aparacaq gənc alimlər üçün sanballı bir qaynaq olduğunu ifadə etdilər.

Sonra Nurəngiz Günə həsr edilən "Günəşin elçisi" esse-monoqrafiyası, "Nurəngiz Gün Beynəlxalq Ödül" yarışmasının qaliblərinin, həmçinin şairin xarici ölkələrdə yayımlanan şeirlərindən ibarət Antalogiyası və şair Maşallah Məftunun Nurəngiz Gün haqqında qələmə aldığı "Güllərin soyqırımı" kitabları tədbir iştirakçılarına təqdim edildi.

Şairin qızı – Milli Məclisin deputatı Jalə Əliyeva bu nəşrlərin Nurəngiz Gün yaradıcılığının əhəmiyyətini bir daha ortaya qoyduğunu söylədi. Eyni zamanda, Həsən bəy Zərdabi İrsi Mərkəzinin təsis etdiyi "Nurəngiz Gün Beynəlxalq Ödül" yarışmasının laureatı olan 6 ölkə şairlərinin əsərlərini yüksək dəyərləndirdi. Bu günlərdə "Qobustan" jurnalının yeni sayında Nurəngiz Gün haqqında yazılan məqalələrin müəlliflərinin poeziya sevdalı tələbə qızlar olduğunu məmnunluqla qeyd etdi.

Texnika və filologiya elmləri doktoru, şair-publisist Elçin İskəndərzadə XQ-yə müsahibəsində bildirdi:

– Bu gün 85 illik yubileyi qeyd olunan Nurəngiz Günün necə müstəsna istedada, qeyri-adi yaradıcılıq maneralarına malik bir şair olduğu bir daha təsdiqləndi. Onun bəşəri yaradıcılığı, özəlliklə də türk dünyasının ruhunu özündə ehtiva edən yaradıcılığı haqqında çox danışmaq olar. Təkcə onu demək istəyirəm ki, nə qədər Türk dünyası oxucuları var, müharibəyə, savaşa dur deyən insanlar var, Nurəngiz Gün yaradıcılığı o qədər yaşayacaq, oxunacaq və seviləcək.

***Fidan HÜQUQQIZI***
***XQ***